*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 19 noyabr 2014-cü il | № 88 (1905) | Qiyməti 25 qəpik

# Şəmkir hərbi birliyinin hərbi şəhərciyində yeni qərargah binası istifadəyə verilib

***Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şəmkir hərbi birliyinin hərbi şəhərciyi ərazisində yeni inşa olunmuş qərargah binasının açılışında iştirak edib.***

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Azərbaycan Ordusu həm peşəkarlıq, həm də maddi-texniki bazasının üstünlüyü baxımından bölgədə ən güclüdür. Son illərdə ölkədə gedən ordu quruculuğu tədbirləri bir daha təsdiqləyir ki, müharibə başlayacağı təqdirdə Azərbaycanın qələbəsini şərtləndirən kifayət qədər mühüm amillər var. Ali Baş Komandanın bölgələrdəki hərbi hissələrə mütəmadi səfərləri əsgərlərimizi Vətəni qorumağa, onları işğal altındakı torpaqlarımız uğrunda hər zaman savaşa qalxmağa ruhlandırır.



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı hərbi hissənin ərazisində yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, üçmərtəbəli bina ordu birliyinin tabeliyindəki birləşmə və hissələrin idarə olunması, idarə heyətinin generalları, zabit və gizirlərin xidmət aparmaları üçün təyin edilib və burada 76 xidməti otaq var. Yeni qərargahda birləşmə və hissələrin döyüş tapşırıqlarını yerinə yetirmələri, qərargah təlimlərinin keçirilməsi, döyüş və səfərbərlik hazırlığı, həmçinin maddi-texniki təminat məsələlərində vaxt itkisinə yol verilməməsi və qoşunların operativ idarə olunması üçün müasir avadanlıqla təchiz edilən taktiki siniflər, çertyoj və kompüter otaqları, rabitə qovşağı və ordu korpusunun müdafiə zolağını əks etdirən maket otaqları qurulub.

Ordu korpusunun rabitə sistemi müasir tələblərə uyğun fiberoptik kabel üzərindən yeni texnologiyalarla təchiz olunub. Burada müasir avtomat telefon stansiyaları quraşdırılıb. Qarşıdakı iki ildə bu sistemin Silahlı Qüvvələrin bütün birlik, birləşmə və hərbi hissələrini əhatə etməsi, birinci eşelon qərargahlarına qədər genişləndirilməsi planlaşdırılır.

Sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirə keçirdi.

Müşavirədə Müdafiə naziri Zakir Həsənov Azərbaycan-Ermənistan sərhədi boyu və təmas xəttindəki vəziyyət barədə məruzə etdi.

Prezident İlham Əliyev bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttini pozması ilə bağlı təxribatını pislədi və Azərbaycan Silahlı Qüvvələri tərəfindən bu təxribatın qarşısının uğurla alınmasını yüksək qiymətləndirdi. Dövlətimizin başçısı güclü döyüş qabiliyyətinə malik olan Silahlı Qüvvələrimizin bundan sonra da düşmənin hər hansı bir təxribatına layiqli cavab verəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev vəziyyətlə bağlı müvafiq göstərişlərini verdi.

Daha sonra dövlətimizin başçısına hərbi qulluqçuların yay-qış geyim formaları göstərildi. Bildirildi ki, pilot variantda hazırlanan və hərbi hissələrdə istənilən iqlim şəraitində sınaqdan keçirilən yeni formalar yüksək dözümlülüyü və davamlılığı ilə fərqlənir. Eyni zamanda, hərbi qulluqçuların yataq şəraiti yaxşılaşdırılıb, köhnə tip əsgər çarpayıları müasir bir və ikimərtəbəli çarpayılarla əvəz olunub. Hazırda stasionar və çöl şəraitində yerləşən hərbi hissələrdə hamam-camaşırxana və məişət otaqlarının avadanlığının yeniləri ilə əvəz olunması istiqamətində müvafiq işlər görülür.

Onu da deyək ki, hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılmasına və bişirilən yeməklərin çeşidinin artırılmasına xüsusi fikir verilir. Hazırda bu işlərlə hərbçilər yox, mülki şəxslər məşğul olur, bu da yeməklərin keyfiyyətinə öz müsbət təsirini göstərir. Relyefinə görə yolları çətin, təhlükəli, əlverişsiz, yüksək dağ şəraitində yerləşən və uzunmüddətli ərzaq tədarükü edilən hərbi hissələrin şəxsi heyətinin konservləşdirilmiş milli yeməklərlə təmin edilməsi üçün də tədbirlər görülüb. Bu sırada qeyd edilən standartlar nəzərə alınaraq hərbi qulluqçuların içməli su ilə təmin olunması da diqqət mərkəzində saxlanılıb. Silahlı Qüvvələrin hərbi qulluqçularının səhra şəraitində quru ərzaq payı dəsti çeşidinin və qida rasionunun kaloriliiliyinin artırılması məqsədilə Nazirlər Kabinetinin müvafiq qərarı və Müdafiə nazirinin əmri ilə ərzaq payına əlavələr edilib.

Diqqətə çatdırıldı ki, hərbi hissənin ərazisində hərbi qulluqçular üçün nəzərdə tutulan tam təmirli 50 xidməti mənzildən ibarət beşmərtəbəli bina da inşa olunub.





**AzərTAc**

## Azərbaycan Respublikasının Müdafiə naziri Pakistan İslam Respublikasına rəsmi səfərə gedib

***Noyabrın 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasına rəsmi səfərə yola düşüb.***

Səfər çərçivəsində Pakistan İslam Respublikasının dövlət və hərbi rəhbərliyi ilə keçiriləcək görüşlərdə iki ölkə arasında hərbi əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyi, regional təhlükəsizlik üzrə fikir mübadiləsinin aparılması planlaşdırılır.

Səfər noyabrın 19-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## "Pakistan States Times": Ermənistan helikopteri Azərbaycanın hava məkanını pozduğuna görə vurulub

***"Pakistan States Times" qəzetində "Ermənistan helikopteri işğal olunmuş Azərbaycan ərazisində Azərbaycan Ordusu tərəfindən vurulub. Yaradılmaqda olan Pakistan-Azərbaycan Media Forumu Ermənistanın uçuşlar üçün bağlı zonanı pozmasını qınayır" adlı məqalə dərc edilib.***

Məqalədə Pakistanın sabiq xarici işlər üzrə katibi, senator Akrem Zekiyə istinadla bildirilir ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz təlimlər keçirib və bu ölkənin uçuşlar üçün bağlı olan hava məkanını pozub. Qeyd edilib ki, Ermənistan hava qüvvələrinin helikopteri Azərbaycanın hava məkanını pozduğuna və Azərbaycan əsgərlərinin həyatına təhlükə yaratdığına görə məhv edilib.

Məqalədə Pakistan ordusunun ehtiyatda olan generalı Amcad Şoheybə istinad edilərək bildirilib ki, Ermənistanın Mi-24 tipli döyüş helikopteri vurulandan sonra Azərbaycan ərazisində yerə düşüb və bu da Ermənistanın Azərbaycanın hava məkanını pozmasının bariz sübutudur.

Müəllif məqalədə Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verir, Azərbaycanın Dağlıq Qarabağ regionunun və ona bitişik 7 rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğunu diqqətə çatdırır.

## Bəs ermənilərin Azərbaycan ərazisində nə işləri var?

***"Azərbaycanda Ermənistana məxsus helikopter vurulub. Maraqlı sual yaranır: Bəs ermənilərin Azərbaycan ərazisində nə işləri var?".***

Belə bir sərlövhəli məqalə Özbəkistanın Sharh.uz portalında yerləşdirilib.

Məqalədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın təkcə Dağlıq Qarabağ bölgəsini deyil, ona bitişik yeddi rayonunu da işğal etdiyi, bir milyondan artıq azərbaycanlının öz dədə-baba torpaqlarından qovulduqları, onların əmlakının və evlərinin dağıdıldığı, bütün bu məsələlərin BMT, NATO, Avropa Şurasının sənədlərində öz əksini tapdığı diqqətə çatdırılır.

Müəllif belə bir sual verir: "Ermənilər niyə azərbaycanlıların əsəbləri ilə oynayırlar?" Müstəqil dövlətin torpaqlarının 20 faizini ələ keçirmək, vətəndaşlarını evsiz-eşiksiz qoymaq, onların əmlakını talamaq, bu azmış kimi işğal altındakı ərazilərdə hərbi təlimlər keçirməklə onsuz da gərgin olan vəziyyəti bir az da ağırlaşdırmaq - bütün bunlar lovğalıq və dikbaşlıq deyilmi? Belə bir vəziyyətdə özünə hörmət edən hər bir dövlət Azərbaycanın atdığı addımı atardı".

## Dağlıq Qarabağ üzərində razılaşdırılmamış uçuşlar hava sərhədi pozuntusudur

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Milli Məclisin deputatı Azay Quliyev bir sıra beynəlxalq təşkilatların rəhbərlərinə və ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinə Ermənistanın hərbi hava qüvvələrinə məxsus döyüş helikopterinin Azərbaycanın hava məkanını pozaraq cəbhədəki ön mövqelərimizə hücum etməsi ilə bağlı məktub ünvanlayıb.

Məktubda bildirilir ki, Azərbaycanın suveren ərazilərində 40 minlik ordu ilə təlim keçirən Ermənistan son bir neçə gün ərzində davamlı olaraq, məqsədli şəkildə təxribatçı uçuşlar həyata keçirib. Bu hərəkətlərin nəticəsi olaraq, Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələri cavab atəşi açaraq özünümüdafiə hüququndan istifadə edib.

Azərbaycan beynəlxalq qanunlara və Beynəlxalq Mülki Aviasiya Təşkilatının qərarlarına əsasən, işğal olunmuş Dağlıq Qarabağ üzərində həyata keçirilən razılaşdırılmamış bütün aviasiya uçuşlarını hava sərhədlərinin pozulması kimi qiymətləndirir.

Məktubda regionda sülhün və sabitliyin qorunması üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasının və BMT-nin dörd qətnaməsinin tələblərinin icrasının vacibliyi vurğulanır.

**AzərTAc**

*Ön xətdən reportaj*

# Helikopter təxribatı düşmənə baha başa gəldi

***Noyabrın 12-də Ermənistan silahlı qüvvələri yenə təmas xəttində təhlükəli təxribat törətdi. Amma bu fitnəkarlığın qarşısını Vətən oğulları soyuqqanlılıqla almağı bacardılar. Həmin gün Ermənistan hərbi hava qüvvələrinin bir cüt Mi-24 tipli döyüş helikopteri qoşunlarımızın müdafiə rayonunda təxribat törətməyə cəhd etdi. Zenitçilərimizin cavabı isə operativ, sərt və yetərincə ağrılı oldu. Düşmən helikopterlərindən biri səngərlərimizin qarşısındakı köhnə üzümlükdə qanad salmağa məcbur oldu. Digərinin pilotları isə canlarını güc-bəla ilə qurtara bildilər.***

Zenitçi İlkin Muradovun göstərdiyi şücaət ildırım sürətilə ölkəmizin hər yerinə yayıldı. Bu xəbər dünya agentlikllərinin operativ məlumatlarının önündə yer aldı. Məlumatı düşmən ölkədə də böyük həssaslıqla qarşıladılar. Helikopterin düşməsi İrəvanda soyuq duş effekti yaratdı və prezident Serj Sarkisyan işini-gücünü atıb başı alovlu Xankəndiyə tələsdi.

Biz isə daxili bir rahatlıqla təmas xəttinə - qəhrəman zenitçilərimizlə görüşə tələsirik. Gecə qatarından düşüb öncə Qarabağ dağlarından axan payız havasını səhərin alatoranında ciyərlərimizə çəkirik. Çoxdandı o dağlara, əzəli yurdlarımıza - Xankəndiyə, Şuşaya, Laçına, Kəlbəcərə, Xocalıya gedib gələ bilmirik. Amma ölkəmizdə görülən böyük işlər, ordumuzun qüdrətlənməsi bizə inam verir ki, o günü mütləq görəcəyik!

Azərbaycan Ordusu son illərdə çox geniş inkişaf yolu keçib. Həm təchizat və təminat baxımından, həm də döyüş qabiliyyətinin möhkəmləndirilməsinə görə. Görülən tədbirlər ordumuzun qayğı ilə əhatə olunduğundan, öz gücünü xeyli artırdığından xəbər verir. Bu gün hər birimiz iftixarla söyləyə bilərik ki, Azərbaycanın güclü Silahlı Qüvvələri var və güvənc yerimizdir.

Səhərin erkən çağından hərbi hissənin həyətində işgüzar ovqat vardı. Qərargahın qarşısında zabitlər yerbəyeri təzəcə keçirmişdilər. Hər yanda əsgərisayaq səliqə-sahman yaradılmışdı. Bir sözlə, adi xidmət gününün başlandığı göz qabağında idi. Hər şey günün nizam qaydalarına uyğun öz axarı ilə gedirdi.

- Bölmələrimiz gecə-gündüz demədən bizə həvalə olunmuş vəzifələri yerinə yetirir, - bizi mehribanlıqla qarşılayan zabit Etibar Əhmədov deyir. - Ön xətdəki bölmələrimiz həmişəki kimi döyüş növbəsi aparır. Arxada yerləşən bölmələrimiz döyüş dərslərinə cəlb olunublar, ixtisas bacarıqlarını artırırlar. Yəni, bizim üçün vərdiş etdiyimiz günlərdən biridir.

(Ardı 2-ci səhifədə)

# Hərbi Dəniz Qüvvələrinin Hərbi Hava Qüvvələri ilə birgə irimiqyaslı əməliyyat-taktiki təlimləri keçirilib





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə noyabrın 13-də Hərbi Dəniz Qüvvələri tam heyətdə, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunlarının hissə və bölmələri, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin iştirakı ilə birgə əməliyyat-taktiki təlimlər keçirilib.***

Həmin gün təlimi izləmək üçün gələn Silahlı Qüvvələrin Baş Qərargah rəisinə Hərbi Dəniz Qüvvələri Komandanının vəzifəsini icra edən birinci dərəcəli kapitan Şahin Məmmədov gəmilərin tam döyüşə hazır olması barədə raport verdi. General-polkovnik Nəcməddin Sadıkov təlimə cəlb olunmuş qoşun növlərinin zabitləri ilə görüşəndən sonra qərargah gəmisinə gəldi. Təlim rəhbərinin döyüş əmrini dinlədikdən sonra Baş Qərargah rəisi təlimi izləmək üçün gəminin göyərtəsinə qalxdı. Çox keçmədi ki, körpülərdə yan alan döyüş gəmiləri tam heyətlərlə şərti düşmənə tərəf istiqamət aldı.

Bu cür təlimlərin keçirilməsində əsas məqsəd Xəzər sularında dəniz sərhədini keçməyə cəhd edən düşmənin döyüş gəmilərini məhv etmək, təxribat dəstələrini zərərsizləşdirmək, həmçinin neft-qaz yataqlarına düşmən basqısının qarşısını almaq üçün hərbi dənizçilərin döyüş hazırlığını daha da artırmaqdır.

Təlimin birinci mərhələsində əsas vəzifə Hərbi Dəniz Qüvvələrinin qüvvə və vasitələrini tam döyüş vəziyyətinə gətirərək, əsas baza məntəqəsinin mühafizə və müdafiəsinin təşkilini müvəffəqiyyətlə həyata keçirmək idi. Adaya daxil olan düşməni məhv etmək üçün öncə dəniz piyada gəmiləri sahilə yaxınlaşır. Daha sonra döyüş vertolyotları onları havadan dəstəkləyir. Dəniz piyadalarının və desant qüvvələrinin birgə əməliyyatı ilə adadakı şərti düşmən məhv edilir.

Təlimdə növbəti döyüş tapşırığı "dəniz quldurları" tərəfindən qəsb edilmiş gəmini azad etmək idi. Bu vəzifəni yerinə yetirmək üçün tapşırıq alan desant qayıqlarından biri digərinin dəstəyi ilə gəmiyə yaxınlaşır və döyüşçülər gəmiyə daxil olurlar. Eyni zamanda, vertolyotdan da onlar dəstəklənir və əməliyyata desant qüvvələri cəlb olunur. Döyüşçülərin operativ hərəkətləri düşmənin tez bir zamanda zərərsizləşdirilməsinə zəmin yaradır. Beləliklə, terrorçular tərəfindən ələ keçirilən bazanın məhv edilməsi, suüstü gəminin və heyət üzvlərinin azad edilməsi istiqamətində aparılan əməliyyat uğurla başa çatır.



Yüksək səviyyədə təşkil olunmuş təlimin hər mərhələsində döyüş tapşırığı uğurla icra edilir. Hər bir mərhələdə döyüş tapşırığı başa çatandan sonra təlim rəhbəri birinci dərəcəli kapitan Şahin Məmmədov Silahlı Qüvvələrin Baş Qərargah rəisinə məruzə edirdi. Təlim rəhbəri iş xəritəsi üzərində general-polkovnik Nəcməddin Sadıkova gəmilərin hərəkət istiqamətini və çatacağı məntəqənin yerini və yerinə yetirəcəyi növbəti döyüş tapşırığı haqda da məlumat verirdi.

Növbəti tapşırıq isə terrorçular tərəfindən ələ keçirilən neft özülünün azad edilməsi idi. Xəzər dənizinin əməliyyat zonasına daxil olan düşmən gəmilərinin məhv edilməsi, döyüş gəmilərinin orderə düzülərək hərəkət etməsi və sərrast atəş nəticəsində hədəflərin məhvi uğurla həyata keçirilir. Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidmətinin qüvvələri də qısa zamanda yanğının qarşısını alır. Böyük Zirə adasının cənub reyd istiqamətində dənizlə keçid, gəmilərin mühafizə olunmayan reyddə lövbərə durması və hərəkətdə universal müdafiənin təşkili üzrə tapşırıqlar da hərbçilərimiz tərəfindən uğurla icra edilir.

Günün ikinci yarısında Hərbi Dəniz Qüvvələrinin Hərbi Hava Qüvvələri ilə Xəzər dənizində keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimləri başa çatır. Gəmilər çıxış xəttinə istiqamət alır. Gecədən xeyli keçmiş döyüş gəmiləri limanda lövbər salırdı...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Helikopter təxribatı düşmənə baha başa gəldi

**(Əvvəli 1-ci səhifədə)**

Hadisə baş verən gün arxadakı bölmələrdə döyüş hazırlığı məşğələləri keçirilirdi. Şəxsi heyət əl qumbaralarının atışı üzrə çalışmaları yerinə yetirirdi. Bu zaman düşmən helikopterlərinin çökəklikdən qəfil qalxıb mövqelərimizə yaxınlaşması barədə məlumat aldıq. Bacarıqlı zenitçilərimiz hədəfi vaxtında aşkar etmişdilər. Manqa komandiri "İqla" tipli zenit-raket qurğusunu döyüşə hazır vəziyyətə gətirmişdi. Düşmən açıq-aydın mövqelərimizə hücum etmişdi. Helikopterlər səngərlərimizə çatanda zenitçimiz İlkin Muradov soyuqqanlılıqla hədəfi vurdu.



Düşmən helikopterinin məhv edilməsi, təbii ki, hərbi hissədə əsgərdən tutmuş zabitə qədər hər kəsi sevincə qərq etmişdi. Zenitçilərimizin şücaətindən ən çox qürur hissi keçirənlərdən biri isə zabit Loğman Heybətov idi.

- Burada düşmənin hava hədəflərinin hücumunun qarşısını almaq üçün davamlı döyüş növbəsi təşkil edilib, - kapitan Loğman Heybətov deyir. - Ən müasir silahlarla silahlanmış şəxsi heyətimiz həmişə yüksək döyüş hazırlığı vəziyyətindədir. Cavabdeh olduğumuz ərazini daim nəzarətdə saxlayırıq. Hava hədəflərinin yüksək sürəti bunu tələb edir. Zenitçilərimiz düşmənin mümkün hava hədəflərinə dərhal atəş açmağa hazırdırlar. Bunu məlum hadisə də göstərdi.



Biz qərargahda çox ləngiməyib zabitlərdən Çingiz Mehdiyev və Loğman Heybətovla ön xəttə yola düşürük. Bir qədər keçmir ki, bizi aparan maşın asfaltdan çıxıb torpaq yolla səngərlərə doğru irəliləyir. Yolboyu hərbi hissənin cəsur mühəndis-istehkamçılarının fədakar əməyindən söhbət salırıq. Doğrudan da, onlar gecə-gündüz demədən burada dərin transeylər qazıblar. İndi hərbi texnikamız tranşeyin içilə ön xəttə qədər təhlükəsiz gedə bilir.

Zabit Çingiz Mehdiyevi çoxdan hazırlıqlı, qabiliyyətli və peşəkar hərbçi kimi tanıyıram. Hələ başqa hərbi hissələrdə xidmət etdiyi vaxtlarda onun işinə necə vicdanla yanaşdığının, özünə və şəxsi heyətə qarşı tələbkarlığının şahidi olmuşam.

- Döyüşçü sinəsində Vətəni sevən böyük ürək gəzdirməklə yanaşı, öz silahını mükəmməl öyrənməli, ondan sərrast atəş açmağı bacarmalıdır, - zabit Mehdiyev deyir. - Silah və texnikanı mükəmməl bilməyən hərbçidən yüksək mənəvi-psixoloji hazırlıq, döyüş ruhu gözləmək sadəlövhlük olardı. Son hadisə göstərdi ki, döyüşçülərimiz həm yüksək döyüş hazırlığına malikdirlər, həm də qəlbən doğma Azərbaycanımıza bağlıdırlar. Çavuş İlkin Muradov hadisə zamanı peşəkarlıq, soyuqqanlılıq göstərərək tələsməyib və məqamında sərrast atəş açmağı bacarıb. Belə Vətən oğulları ilə fəxr etməyə dəyər.

Budur, çox keçməmiş dolanbac tranşeydən sağa burulur və zenitçilərimizin yanına çatırıq. Hündürboylu, suyuşirin manqa komandiri əsgəri qaydada komandirinə vəziyyət barədə raport verir.

- Günümüzün qəhrəmanı çavuş İlkin Muradov budur, - zabit Çingiz Mehdiyev deyir. - Onu da qeyd edim ki, son hadisəyə qədər müddətdən artıq hərbi qulluqçu İlkin Muradov əsgər olub. Göstərdiyi şücaətə görə, dərhal yuxarı komandanlıq ona çavuş hərbi rütbəsi verib və qiymətli hədiyyə ilə mükafatlandırıb. Necə deyərlər, adi Vətən oğullarından biridir. Amma adi Vətən oğlu içində bu torpağın odunu-alovunu gəzdirir.

- Valideynlərim sadə kənd adamlarıdır, atam təsərrüfat işlərilə məşğuldur, - İlkin özü barədə sualımı cavablandırır.

O, iki bacının tək qardaşıdır. Bacıları İlkindən kiçik olsa da, artıq ailə qurublar. Əsgər kimi 2008-2010-cu illərdə xidmət edib. 2014-cü ildə yenidən hərbi xidmətə gəlib.

- Məndə hələ əsgər kimi xidmət etdiyim müddətdə ordumuza sevgi, rəğbət yaranmışdı, - deyir müsahibim. - Məni hərbi xidmətə gətirən Azərbaycan əsgərinin geyiminə sevgim olub. Hələ 2012-ci ildən orduya qayıtmaq fikrim vardı. Ancaq atam xəstə olduğuna və sənədləri vaxtında düzəldib təqdim edə bilmədiyimə görə o vaxt mümkün olmadı.

Nəhayət, 2014-cü ildə İlkin Muradov xidmətə müddətdən artıq hərbi qulluqçu kimi götürülməsi barədə yenidən komandanlığa müraciət edib. İki ay kurs keçdikdən sonra zenitçi ixtisasına yiyələnmiş neftçalalı balası hərbi xidmətini bu hərbi hissədə iyuldan davam etdirir. Artıq beş aydır ki, xidmət edən çavuş Muradov sevdiyi silahını mükəmməl öyrənməyi bacarıb.

- Biz həmişəki kimi burada xidmət aparırdıq, ön mövqeləri müşahidə edirdik, - manqa komandiri gülümsünür. - Bilirdik ki, erməni birləşmələri qarşımızdakı təpələrin arxasında hərbi təlim keçirlər. Onların uçuş istiqamətlərini öyrənmişdik. Və həmin istiqaməti daim nəzarətdə saxlayırdıq.

Zenitçilərimiz hələ üç gün əvvəl də düşmənin bir helikopterini binoklla müşahidə ediblərmiş. Onda helikopter bizim mövqelərdən çox uzaqda uçub. Qarşıdakı dağın ətəyindən hərbi texnika düşmənin təlim mərkəzinə gedib və sonra qayıdıb. Noyabrın 12-də isə helikopterlər düz səngərlərimizə doğru yönəliblər.

- Mən start mövqeyində hazır vəziyyətdə dayanmışdım, - İlkin xatırlayır. - Uzaqdan əvvəlcə düşmən helikopterlərinin səsini eşitdik. Sonra hədəflərin qaraltılarını nöqtə kimi binoklda müşahidə etdik. Gördük iki Mİ-24 tipli helikopter düz üstümüzə gəlir. Dərhal bu barədə komanda məntəqəsinə məlumat verdik. Göstəriş aldıq ki, əgər bizim hərbi hissənin müdafiə rayonuna daxil olsalar, hava məkanını pozsalar, hədəfləri məhv edək.

Helikopterlər səngərlərimizin üzərinə sürətlə yaxınlaşaraq mövqelərimizi atəşə tutdular və postlarımıza zərbə endirdilər. Ön xətdəki döyüşçülərimiz də avtomat və pulemyotlardan düşmənin texnikalarını atəşə tutdular və bu zaman onlar sola istiqamət götürdülər. Mən dərhal arxada uçan helikopteri nişan alıb tətiyi basdım.

Biz döyüş postuna gedib həmin döyüşçülərimizlə də görüşdük. Ön xətdə döyüş növbəsi aparan əsgərlərimizin manqa komandiri Talıb Alımərdanov da düşmən helikopterlərinin döyüş postunun düz üstündən uçduğunu söylədi:

"Hələ helikopterlər yaxınlaşanda biz artıq tam heyətlə səngərdə yerimizi tutmuşduq. Hər ikisi hərbi səhra formasında rənglənmiş helikopter idi. Doğrusu, gözləmirdik ki, düşmən helikopterləri bu qədər bizə yaxınlaşalar. Ona görə əlimizdəki silahlardan onlara cavab atəşi açdıq. Bu vaxt fısıltı ilə uçan raket arxadakı helikopterə çırpıldı və o alışaraq səngərlərimizin qarşısına düşdü. O biri helikopter isə dərhal geriyə qayıtdı və alçaqdan uçaraq gözdən itdi".



Raket düşmən helikopterini alışdıranda döyüşçülərimizin sevincdən uçmağa qanadı yox idi. Zenitçilərimiz bu harınlığını düşmənə bağışlamadı. Daha doğrusu, bu ermənilərin düşünülmüş uğursuz təxribatı idi.

Bəlkə, onlar Azərbaycan əsgərinin gücünə - gözünün itiliyinə, barmağının sərrastlığına şübhə etmişdilər? Bu gündən onlar, inanıram ki, bir də belə başı soyuqluğa yol verməzlər.

Qoy bundan sonra erməni zinvorları da, onların İrəvanda oturan başbilənləri də unutmasınlar ki, Azərbaycan əsgərlərilə zarafat etmək onlar üçün asan olmayacaq! Və işğal altında torpaqlarımızı uzun müddət saxlaya bilməyəcəklər.

Bu gün nəinki zenitçilər, bütün döyüş ixtisasları üzrə mükəmməl tədris sistemi yaradılıb. Döyüşçülərimiz istənilən hava şəraitində mübarizə aparmaq bacarığına yiyələnirlər.

Zenitçilərin hazırlığı üçün Silahlı Qüvvələrimizdə mükəmməl təlim-tədris mərkəzləri yaradılıb, trenajorlar alınıb və bu bazalarda çox yüksək hazırlığa malik ordu mütəxəssisləri hazırlanır. Zenitçi İlkin Muradov onlardan yalnız biridir.

Mahir zenitçi kimi yetişmiş çavuş İlkin Muradov həm kurs keçdiyi müddətdə, həm də sonrakı aylarda çox sevdiyi "İqla" daşınan zenit-raket kompleksindən sərrast atış qaydalarını mükəmməl mənimsəyib.

Hərbi qulluqçularımızın sayıqlıq və igidliyi nəticəsində düşmənin Mi-24 tipli döyüş helikopterini məhv etdiyinə görə, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İlkin Məmməd oğlu Muradov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edildi və qiymətli hədiyyə ilə mükafatlandırıldı.

Bəli, zenitçilərimiz digər bölmələrimizlə çiyin-çiyinə gün ərzində müdafiə mövqelərində ayıq-sayıq döyüş növbəsi aparırlar. Əgər düşmən mövqelərimizə hücum edərsə və hava sərhədimizi pozarsa, layiqli cavab alacaq. Bunu ermənilərin helikopterlərlə törətdiyi təxribatın acı nəticələri bir daha göstərdi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycanın Müdafiə Nazirliyindən Ermənistanın hərbi-siyasi rejiminə cavab

Ermənistan Respublikasının hərbi-siyasi rejimi növbəti dəfə Azərbaycana qarşı hədə-qorxu dolu məsuliyyətsiz bəyanatlar verməkdə davam edir. Öz xalqını aldadaraq provokasiyaya çəkməklə Azərbaycana münasibətdə aqressiv siyasət yürütməsi onların hazırda regionda mövcud olan real vəziyyəti düzgün qiymətləndirməmələrinin nəticəsidir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, düşmən tərəfi işğal edilmiş ərazilərdən qoşunlarının qeyd-şərtsiz və dərhal çıxarılmasının vacibliyini anlamalı, erməni gənclərini ədalətsiz müharibədən çəkindirərək əbəs yerə qırdırmamalıdır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri düşmənin istənilən təxribatının qarşısını almağa qadirdir və hazırdır.

Düşmən tərəfi növbəti dəfə hər hansı bir hərbi əməliyyata əl atarsa, Azərbaycan Silahlı Qüvvələrinin işğalçılara dərhal vuracağı zərbə hədsiz dərəcədə təsirli, məhvedici olacaq, külli miqdarda itkilər və dağıntılarla nəticələnəcək, uzun müddət onların yaddaşlarından silinməyəcəkdir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Noyabrın 17-dən 18-dək Ankara şəhərində (Türkiyə) Heydər Əliyev adına Hərbi Liseydən nümayəndə heyətinin Türkiyə Quru Qoşunları Hərbi Məktəbini ziyarəti; noyabrın 17-dən 21-dək Oberammerqau şəhərində (Almaniya) NATO qərargah zabitləri üçün tanışlıq kursu və İstanbul şəhərində (Türkiyə) Heydər Əliyev adına Hərbi Liseydən nümayəndə heyətinin Türkiyə Kuleli Liseyini ziyarəti planlaşdırılır.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 18-də Ağdam rayonunun Mərzili kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Saymon Tiller, Piter Svedberq və yüksək səviyyəli planlaşdırma qrupunun rəhbəri polkovnik Markus Uidmer (İsveçrə) keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Xristo Xristov, Yevgeni Şarov və yüksək səviyyəli planlaşdırma qrupunun nümayəndəsi Vitaliy Belokon (Rusiya) keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***18 noyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 24 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Yusifcanlı, Sarıcalı, Füzuli rayonunun Aşağı Veysəlli, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

Hərbi and

# Vətənə xidmət şərəfdir

## Noyabrın 16-da Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində andiçmə mərasimləri keçirilib

*“Hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini şərəf bilməlidir”.*

Heydər ƏLİYEV



***Qızılı payızın gözəl bir günüdür. Bu günü illərlə gözləyən valideynlər, onların yaxınları, doğmaları müxtəlif bölgələrdən qədim Nizami yurduna - Gəncəyə üz tutublar. Vətənə xidməti hər şeydən uca tutan xalqımızın mərd, mübariz övladları hərbi andı qəbul edərək, ordumuzun tamhüquqlu üzvləri olacaqlar.***

Hərbi hissənin qarşısında qələbəlikdir. Valideynlər, içtimaiyyət nümayəndələri, məktəblilər, veteranlar əlamətdar hadisə münasibətilə buraya toplaşıblar. Mərkəzi meydanda mətin sıralarda dayanan övladlarına baxan valideynlərin üz-gözlərində sevinc, fərəh hissi var. Hamı hərbi qaydalara riayət edir. Zabit Daşqın Bənnayevin "Farağat, diqqət mərkəzə!" komandası hər tərəfdə sakitlik yaradır. Hərbi marşın sədaları altında o, general-leytenant Rövşən Əkbərova gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə raport verdi. Ali rütbəli zabit gənc əsgərləri salamlayaraq, onları orduda xidmət keçmələri münasibəti ilə təbrik etdi. Gənc əsgərlər hərbi andı qəbul etmək üçün müəyyən olunmuş yerə gələrək, əllərini üçrəngli bayrağımıza, döyüş silahlarına qoyaraq Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərinə və ölkəmizin ərazi bütövlüyünü qoruyacaqlarına hazır olacaqlarına and içdilər.

Gənc əsgərlərin həyatında mühüm yer tutan əlamətdar hadisəyə həsr olunmuş mərasim açıq elan olundu. Şəxsi heyət müstəqilliyimizin rəmzi olan Dövlət himnini oxudu.

General-leytenant Rövşən Əkbərov Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrik məktubunu oxudu.

Döyüş yolu keçmiş təcrübəli zabit, "Azərbaycan Bayrağı" ordenli Daşqın Bənnayev çıxış edərək bildirdi ki, hərbi hissə ulu öndər, əbədiyaşar komandan Heydər Əliyevin xeyir-duası ilə yaranıb.

- Bu hərbi hissənin döyüşçüləri Sədərək, Füzuli, Tərtər istiqamətində torpaqlarımızın müdafiəsində yaxından iştirak edərək, qəhrəmanlıqlar göstərmişlər, - dedi zabit. - Döyüşçülərdən 16 nəferi ən yüksək fəxri ada - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, 31 nəfəri isə "Azərbaycan Bayrağı" ordeni ilə mükafatlandırılıb. Əbədi yaddaşımıza yazılan hadisə isə ulu öndər Heydər Əliyevin hərbi hissəmizin şəxsi heyəti ilə keçirdiyi görüşlərdir. Bu gün də şəxsi heyətimiz, ordumuzun memarı və qurucusu olan əbədiyaşar komandanın tövsiyə və məsləhətlərinə sadiq qalaraq, Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizəni qətiyyətlə davam etdirirlər.



Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva ictimaiyyət nümayəndələri adından tədbirdə çıxış edərək gənc əsgərləri təbrik etdi, onlara xidmətdə uğurlar arzuladı. O dedi:

- Hamımız üçün çox sevindirici gündür. Ölkəmizin iqtisadi, siyasi, hərbi qüdrəti durmadan artır. Xalqımızın ümummilli liderinin başladığı böyük miqyaslı quruculuq işləri onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmiz beynəlxalq aləmdə nüfuzlu dövlət kimi tanınır. Ulu öndərin böyük ideyaları, arzuları bu gün reallığa çevrilir. Azərbaycan Silahlı Qüvvələri artıq Qafqaz regionunun ən güclü, müasir dövrün tələbləri səviyyəsində qurulan qüdrətli ordusu hesab olunur. Ali Baş Komandan ordunun daha da möhkəmlənməsi yolunda səylərini əsirgəmir. İnanırıq ki, gənc əsgərlərimiz də Vətən andına sadiq olacaq və ölkəmizin mətin müdafiəçiləri kimi formalaşacaqlar.

Valideynlər adından Cəlilabad rayon sakini, Qarabağ müharibəsi veteranı Tağı Zeynalov çıxış etdi. O bir valideyn kimi oğlunun Vətən müdafiəçiləri sırasında durmasından qürur hissi keçirdiyini söylədi. “Hər bir valideyn qürur duymalıdır ki, onun övladı hamımızın illərlə arzuladığı müstəqil, azad Vətənimizdə xidmət edəcək, hərb sənətini mükəmməl öyrənməklə, bacarıqlı döyüşçü kimi formalaşacaqdır”.

Gənc əsgərlər adından Azərbaycan Dövlət Neft Akademiyasının məzunu, informasiya və texnologiya üzrə respublika, beynəlxalq səviyyəli olimpiadaların qalibi Zaur Allahverdiyev bildirdi ki, bu gündən onlara şərəfli, müqəddəs vəzifə olan Vətənin müdafiəsi etibar olunur. "Bu yüksək etimadı doğrultmaqla, Vətən torpaqlarının xilaskarları olmaq bizim əsas vəzifəmizdir".

Gəncə Qarnizonu Zabitlər Evinin solistləri Zeynəb Abdullayeva və Mehriban Aslan əsgərləri qələbəyə ruhlandıran mahnılar oxudular.

Kəşfiyyat bölüyünün əsgərləri isə döyüş hazırlıqlarını məharətlə nümayiş etdirdilər.

Tədbirin sonunda general-leytenant Rövşən Əkbərov bir daha gənc əsgərləri və onların valideynlərini təbrik edərək bildirdi ki, hazırda dövlət rəhbərliyi tərəfindən orduya göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qüdrəti daha da artıb. "Bu günlərdə Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi hissəmizdə olması bir daha göstərir ki, ölkə rəhbərliyi orduya yüksək diqqət, qayğı göstərir. Belə görüşlər şəxsi heyətimizin döyüş ruhunu daha da artırır. Bizə göstərilən etimadı doğrultmaq üçün daha səmərəli fəailiyyət göstərəcək, Ali Baş Komandanın əmrini həmişə yerinə yetirməyə hazır olacağıq".

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

---

***Həmin gün "N" hərbi hissəsində də böyük qələbəlik idi. Buraya toplaşan valideynlər, yaxın qohumlar, gənclər qəlblərindən sevinc dolu anlar keçirir, tədbirin başlanmasını səbirsizliklə gözləyirdilər. Bu gün gənc əsgərlər hərbi and içib Vətənə şərəflə xidmət edəcəklərinə söz verirdilər. Budur, hərbi hissənin zabiti hər kəsdən yerini tutmağı xahiş edir. Mərkəzi meydanda şəxsi heyət hərbi andiçməyə hazır vəziyyətdə düzülmüşdü.***



Polkovnik Qədir Nəsibov raportu qəbul etdikdən sonra gənc əsgərlərin andiçmə mərasimi başlandı. Gənclər hərbi andı qəbul edərək, Azərbaycan xalqına, dövlətinə sədaqətlə xidmət edəcəklərinə, Vətən uğrunda döyüşlərə həmişə hazır olacaqlarına, bu yolda canlarını və qanlarını əsirgəməyəcəklərinə, hərb işini vicdanla öyrənəcəklərinə söz verdilər.

Hərbi hissə komandiri valideynləri və qonaqları salamladıqdan sonra gənc əsgərləri hərbi and içmələri münasibəti ilə təbrik etdi. O, çıxışına davam edərək dedi ki, ordumuz günügündən güclənir, qüdrətlənir. “Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya göstərdiyi böyük diqqət bu gün göz önündədir. Siz valideynlər fəxr etməli, qürur duymalısınız ki, övladlarınız Azərbaycan Ordusunun əsgərləridir”.

Zabit Hümmət Bəndiyev gənc əsgərlərə müraciətində vurğuladı ki, hər bir gənc üçün hərbi xidmətkeçmə dövrü həm ciddi imtahan, həm də həyati sınaq mərhələsidir. “Məhz ordu sıralarında qazanılmış təcrübə gənclərə gələcək həyatda büdrəməmək, hər hansı çətinlikdən mətanətlə çıxa bilmək üçün lazımi təcrübə verir. Ordu həyatını kişilik məktəbi, mətinlik məktəbi hesab edənlər, doğrudan da, yanılmırlar, çünki hər bir gənc ordu sıralarında püxtələşir, mətinləşir. Bu gün Azərbaycan əsgərlərinin bir fikri, bir amalı olmalıdır: yadelli işğalçıların tapdağı altında olan torpaqlarımızı azad etmək. Siz Vətənin müdafiəçiləri hər addımınızı bu istəklə atmalısınız”.

Sonra çıxış üçün söz gənc əsgər Azad Həsənliyə verildi. O qeyd etdi ki, bu təntənəli gün yaddaşımızdan heç vaxt silinməyəcəkdir. “Müstəqil Vətənimizdə xidmət etmək və doğma ordumuzun əsgəri olmaq böyük şərəfdir. Bu gün burada mənimlə birlikdə Vətənimizə, xalqımıza, dövlətimizə sədaqət andı içən bütün gənc əsgərlər adından söz verirəm ki, qəbul etdiyimiz hərbi andın bütün tələblərini yerinə yetirəcək, komandir və rəislərimizin bizə göstərdikləri etimadı doğruldacağıq”.

Mərasimin sonunda hərbi orkestrin marş sədaları altında tribunanın önündən bölmələrin təntənəli keçidi oldu. Sonra hərbi hissə komandiri valideynlər və qonaqlarla görüşdü. Görüş zamanı valideynlər yaradılan yüksək şəraitdən razı qaldıqlarını və komandanlığa öz minnətdarlıqlarını bildirdilər.

Hərbi andı qəbul edən gənc əsgər Şəhriyar Rəhimli ilə söhbət apararkən öyrəndim ki, bir əmisi İmran Rzayev Ağdərənin müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olub, digər əmisi Faiq Rzayev isə Qarabağ veteranıdır. Şəhriyar da onların yolunu mərdliklə davam etdirəcəyinə söz verdi. Erməni faşistlərinə qarşı hər an döyüşə hazır olduğunu və qəhrəmanların keçdiyi şərəfli döyüş yolunu ləyaqətlə davam etdirəcəyini bildirdi.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

---

***Hərbi hissənin ərazisində təşkil edilmiş mərasimdə rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilib, Azərbaycan Respublikasının Dövlət himni oxunub və tədbir açıq elan edilib.***

Mərasimdə Azərbaycan Respublikasının müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə polkovnik Münasib Babayev gənc əsgərləri və onların valideynlərini mötəbər gün münasibəti ilə təbrik edib:

"Hərbi and içmələri münasibətilə gənc əsgərlərimizi təbrik edirəm. Onların hər birinin Vətənə layiqli övlad olacağına inanıram. Ümummilli lider Heydər Əliyev məktəbinin davamçısı Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi qayğı və diqqət sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırır. Hərbi and içərək Azərbaycanımızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə hər biriniz bu müqəddəs andın mənasını tam dərk etməlisiniz. Bu gün hər bir vətəndaşın təhlükəsizliyi, hər qarış torpağımızın müqəddəratı məhz sizin nümunəvi xidmətinizdən asılıdır".

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.

Andiçmə mərasimində ictimaiyyətin nümayəndələri, veteranlar və əsgərlərin valideynləri də iştirak ediblər.

Valideyn Sənan Hüseynov çıxış edərək, gənc əsgərləri təbrik edib. O, övladının ən şərəfli günündə onunla bir yerdə olduğu üçün qürur duyduğunu söyləyib. S.Hüseynov deyib ki, övladının Vətəni qorumaq kimi böyük məsuliyyəti üzərinə götürməsi onu ata kimi fərəhləndirir.

Süleyman Rəhimov adına ədəbi birliyin sədri, şair-publisist Qafqaz Əvəzoğlu isə gənc əsgərlərə dözümlü olmağı, Vətənin keşiyində möhkəm dayanmağı tövsiyə edib.

Ehtiyatda olan hərbçi, Qarabağ müharibəsi əlili Rəşid Nəsibov gənclərimizə keçmiş döyüş illərindən danışıb. Gənc əsgərlərə Vətənin igid övladlarının davamçıları olmalarını tövsiyə edib.

Əsgər valideyni şair Vəzir Babalı da andiçmə mərasimində iştirak edən hər kəsi təbrik edib.

Mərasimdə çıxış edən digər natiqlər - hərbi qulluqçular, valideynlər və ictimaiyyət nümayəndələri gənc əsgərlərə nümunəvi olmağı, silah və texnikanın sirlərini dərindən öyrənərək, komandir-rəis heyətinin əmr və tapşırıqlarını dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın azadlığı uğrunda döyüşə hər an hazır olmalarını arzu ediblər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**



---

***Hərbi hissənin bayramsayağı bəzədilməsi gənc əsgərlərin andiçmə mərasimi ilə bağlı idi. Həm zabit və əsgərlərin, həm də valideynlərin üzü gülürdü. Çox keçmədi ki, gənc əsgərlərin hərbi andı qəbul etmələrinə həsr olunmuş mərasim başlandı. Mayor Pənah Abdullayev şəxsi heyətin andiçmə günü münasibətilə düzüldüyü barədə zabit Qəşəm Əhmədova məlumat verdi. Nizami addımlarla sıranın qarşısına gələn zabit gənc əsgərləri əlamətdar hadisə münasibəti ilə təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar arzuladı.***



Komandirin əmri ilə gənc əsgərlər hərbi andı qəbul etməyə başladılar. Gənc əsgərlər sıra meydanında qoyulmuş stollara yaxınlaşdılar. Əllərini silahların və bir-birilərinin çiyinlərinə qoyaraq hərbi andı qəbul etdilər. Gözlərindən sevinc yağan əsgərlərin səsi dalğa-dalğa ətrafa yayılırdı...

Gənc əsgərlər hərbi andı qəbul etdikdən sonra təbriklər başlandı. İlk olaraq zabit Qəşəm Əhmədov çıxış etdi. O dedi:

- Bu gün hərbi hissəmiz üçün əlamətdar gündür. Gənc əsgərlər Vətənə sədaqət andı içirlər. Ümummilli liderimiz Heydər Əliyev cənablarının dediyi kimi, "orduda xidmət etmək hər bir vətəndaşın müqəddəs borcudur".

Ötən müddət ərzində Silahlı Qüvvələrimiz müasir texnika, silah və sursatla təchiz olunub. Ordu quruculuğu istiqamətində aparılan islahatlar Silahlı Qüvvələrimizin möhkəmlənməsinə xidmət edir. Ulu öndər Heydər Əliyevin səyi ilə yaradılan Azərbaycan Ordusu bu gün qarşısında dayanan tarixi vəzifələri yerinə yetirmək əzmindədir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində ordumuz günbəgün qüdrətini artırır. Cənab Ali Baş Komandan qeyd edib ki, "Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Zabit Pənah Abdullayev də gənc əsgərləri təbrik edərək bildirdi ki, nizami ordu suveren dövlətin ən mühüm atributlarından biridir. Vətənin keşiyində dayanmaq hər bir vətəndaşın müqəddəs borcudur. Azərbaycan tarix boyu müharibələrə meydan olub. Bu torpağın övladları müxtəlif dövrlərdə istilaçı qoşunlarla üz-üzə gəlib, qanlı savaşlarda Azərbaycanın varlığını qoruyub saxlamışlar.

- Əziz əsgərlər, bu gün siz Vətənə, xalqa və dövlətə and içməklə söz verdiniz ki, öz şərəfli xidmətinizlə Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün keşiyində layiqincə dayanacaq, hərbi sirlərə dərindən yiyələnəcəksiniz, - deyə zabit bildirib. - Hər bir əsgər bilməlidir ki, ona Vətənin, xalqın taleyini qorumaq kimi şərəfli bir vəzifə tapşırılır və o, yeri gələrsə, öz həyatından belə keçməyə hazır olmalıdır. Siz şərəfli borcunuzu layiqincə yerinə yetirmək üçün hərtərəfli döyüş vərdişlərinə yiyələnməli, bilik və bacarığınızı daim təkmilləşdirməlisiniz.

Əsgər atası Nağı Ağayev də gənc əsgərləri təbrik etdi, gələcək xidmətlərində onlara uğurlar arzuladı.

Gənc əsgərlər adından çıxış edən Azər Mehdiyev isə bildirdi ki, hərbi sirləri dərindən öyrənəcək, Vətənə layiqli əsgərlər olacaqlar.

Hərbi andiçmə mərasiminə həsr olunmuş tədbir şəxsi heyətin təntənəli marşı ilə başa çatdı.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ordu və cəmiyyət

# İnam qələbənin zəfər bayrağıdır

Paşa ƏMİRCANOV,
Qarabağ müharibəsi veteranı



- Mən də bu torpağın bir övladı kimi Qarabağ savaşının iştirakçısı olmuşam. Torpağı qoruyanları da görmüşəm, torpağı qərəzinə, hikkəsinə qurban verənləri də. Eləsi olub ki, avtomatı düz-əməlli söküb-yığa bilmirdi, amma yüzlərlə torpaqcanlı oğula komandirlik eləyirdi. "Qrad" mərmisinin yeşiklərini kimlərəsə satan da görmüşəm. Ulu öndərimiz Heydər Əliyev gəldi, qondarma komandirlərin dövranı pozuldu. Silahlı Qüvvələrimizdə nizam-intizam ciddiləşdi, özbaşınalıq aradan qaldırıldı...

Xalqın gözü tərəzidi. Xalq hər şeyi görür. Sabir demişkən, zaman nehrə kimi çalxalandı, yağı yağ üstə çıxdı, ayranı ayranlıq oldu. İndi dünya dövlətlərinin Azərbaycana münasibəti tamam dəyişib, artıq bizimlə hesablaşırlar. Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimiz, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin siyası kursunu uğurla davam etdirir. Onun xarici siyasəti də, daxili siyasəti də Vətənini sevənlərin ürəyini dağa döndərir. Digər sahələr öz yerində, ordu quruculuğunda həyata keçirilənləri düşünəndə bilirsən ki, qısa vaxtda Azərbaycan Ordusunda çox mühüm yeniliklər baş verib. Silahlı Qüvvələrimizin döyüş hazırlığı göz qabağındadır. Avqustda ermənilər anladılar ki, qarşılarında olduqca güclü bir ordu var...

Onda əsgərlərimizin sayıqlığı, cəsarəti, amalı düşmənə bir daha xatırlatdı ki, işğal elədiyi əraziləri mütləq tərk etməlidir.

İstər Ali Baş Komandanın, istərsə də Müdafiə nazirinin ön cəbhədə əsgərlərin yanında olması çox şeyə aydınlıq gətirir. Əsgər torpağın, Vətənin, Ali Baş Komandan, Müdafiə naziri isə əsgərin qayğısına qalır. Orduda döyüş ruhu yüksəlib. Silahlı Qüvvələrimiz ən müasir silahlarla təchiz edilib. Buna necə sevinməyəsən?

Vətəndaş olaraq sevinirəm. Sevinirəm ki, Ali Baş Komandanımızın əmrinə təkcə hərbçilər deyil, elə mülkilər də hazırdı. O əmr verilsə, əlinə silah götürənlərdən biri də mən olacağam. Xalq ordusuna, ordu xalqa güvənir. Bu, inamdır... Xalqın Ali Baş Komandana, Müdafiə nazirinə, öz ordusuna inamı...



# Silahlı Qüvvələrin voleybol üzrə birinciliyi başlayıb





Noyabrın 18-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin idman zalında Silahlı Qüvvələrin voleybol birinciliyi başlanıb. Birincilikdə müxtəlif qoşun növlərini, ayrı-ayrı hərbi hissə və tədris müəssisələrini təmsil edən 13 komanda medallar uğrunda mübarizə aparır. Yarışları beynəlxalq dərəcəli hakim Eldar Əliyevin rəhbərlik etdiyi hakimlər briqadası idarə edir.

Təntənəli açılış mərasimində çıxış edən Müdafiə Nazirliyi fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik-leytenant Sadiq Paşayev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından yarış iştirakçılarına uğurlar arzuladı və daha güclülərin qalib gəlməsini dilədi. Mərasimdə Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman bölməsinin keçmiş rəisi, avtomobil qəzasında dünyasını dəyişmiş polkovnik-leytenant Eldar Məmmədovun xatirəsi ehtiramla anıldı və mərhumun oğluna hədiyyə təqdim olundu.

Silahlı Qüvvələrin Voleybol birinciliyi şənbə gününədək davam edəcək, qaliblərə birinciliyin medalları, fəxri fərman və diplomlar təqdim ediləcək.

**"Azərbaycan Ordusu"**



# Texnikanın sazlığını təmin edən kollektiv

***Hərbi hissəyə gələndə səhərin lap erkən çağlarıydı. Təbii ki, gün ərzində görüləcək işlər və digər qeydlər barədə komandanlıq bölmə komandirlərinə öz göstərişlərini verdi. Silah və texnikanın hazırlığı ilə bağlı vacib nüanslara xüsusi diqqət yetirilməsi, avtomobil və digər maşınlara keyfiyyətli qulluq göstərilməsi və digər önəmli məsələlər zabitlərin bir daha nəzərinə çatdırıldı.***



"N" hərbi hissəsində təmirçilərin fəaliyyəti hərbi hissələrimizdə bilavasitə döyüş hazırlığının təmin edilməsinə yönəlmişdir. Əgər avtomobil və ya zirehli döyüş texnikası qarşıya qoyulan hərbi tapşırıqları yerinə yetirməyə imkan verməzsə, yüngül və ya ağır silahlarda nasazlıq yaranarsa, hərbi kollektivin döyüş qabiliyyəti də aşağı düşər. Ona görə mahiyyət etibarilə ön xətdə, müdafiə mövqelərində gecə-gündüz demədən keşik çəkən, eləcə də arxa cəbhədə yerləşmiş və ixtisas-taktiki hazırlığını təkmilləşdirən bölmələrlə təmirçilər kollektivinin işi bir vəzifənin yerinə yetirilməsinə - hərbi hissələrimizin döyüş potensialının möhkəmlənməsinə xidmət edir.

- Bizim vəzifəmiz təminat işlərilə məşğul olmaq, həmçinin texnika və silahlarda üzə çıxan nasazlıqları aradan qaldırmaqdır, - bizimlə söhbət zamanı zabit Nəsrəddin İsgəndərov dedi. - Buraya gətirilməsi mümkün olan texnikanı burada təmir edirik, gətirilməyəni isə mütəxəssislərimiz ezam edilərək hadisə yerində düzəldib sıraya qoyurlar. Hazırda hərbi kollektivimizdə öz işini bilən və məharətlə vəzifəsini yerinə yetirən təcrübəli mütəxəssislərimiz var və onlar istənilən vaxt döyüş növbəsi aparan döyüş bölmələrinin köməyinə getməyə hazırdırlar.

Səliqə-sahmanın hökm sürdüyü hərbi hissədən şəxsi heyətin gün ərzində hansı işlərlə məşğul olmasını soruşduq. Məlum oldu ki, təmirçilər hərbi hissənin ixtisasına uyğun döyüş hazırlığı planında nəzərdə tutulmuş peşə ustalıqlarını artırmaqla yanaşı, həm də praktik tapşırıqları icra etməklə də məşğuldurlar.

Hərbi hissədə silah, zirehli texnika və avtomobillər, eyni zamanda xüsusi qurğular üzrə təmir qrupları var. Ehtiyac olduqda sifarişə əsasən, müvafiq ixtisas mobil təmir qrupu bölmələrə yollanır və yerində təmir işlərini yerinə yetirir. Əgər orada təmir mümkün olmasa, texnika gətirilir buraya, burada müasir cihazlarla dəqiq müayinə edildikdən sonra təmir edilərək sıraya qoyulur.

Məsələn, bu yaxınlarda tankların geritəpmə qurğularının yoxlanması və yaxud həmin qurğuların maye ilə doldurulması ilə bağlı sifariş daxil olmuşdu. Dərhal mobil təmir qrupu tankçıların köməyinə tələsmişdi. Daxili yoxlama komissiyası ilə birlikdə texnikanın geritəpmə qurğuları yoxlanılmış, sonra nizamlanaraq sıraya qoyulmuşdu.

Onu da qeyd edim ki, son zamanlar hərbi hissə yeni və müasir avtomobilləri, xüsusi təmir emalatxanaları, nəzarət-ölçü cihazları və digər maddi vəsaitlər ilə təchiz edilib. Əgər vaxtilə alət və avadanlığın qeyri-mükəmməlliyi və nasazlığı ucbatından hansısa iş çətin və natamam görülürdüsə, bu gün müasir avadanlıqların vasitəsilə mütəxəssislər həmin işi rahatlıqla, dəqiq və tez bir zamanda başa çatdırırlar.

İndiki texnika və avadanlıqlar həm də daha geniş imkanlara malikdir. Bu maşınların keçid imkanları böyük, idarə edilməsi isə asandır. Bütün bunlar təmirçilərə öz işlərini yeni səviyyədə və daha keyfiyyətlə görməyə imkan verir.

- Bizim təmir qruplarının hamısı bacarıqlı, öz işini bilən mütəxəssislərdən ibarətdir, - mayor Rövşən Məhərrəmov dedi. - Təcrübəli zabitlərimiz, gizirlərimiz, müddətdən artıq hərbi qulluqçularımız var. Onlar texnika və silahların üzərində işi mükəmməl mənimsəyiblər. Son zamanlar mütəxəssislərin müddətdən artıq hərbi qulluqçu vəzifələrinə götürülməsi xidmətin və işin səmərəliliyini xeyli artırıb.



Əvvəllər adi əsgərlər öyrədilərək mütəxəssis kimi təmir işində istifadə edilirdilər və bir müddət sonra onlar xidmət başa çatdığına görə ordu sıralarından tərxis edilirdilər. Yenilərini öyrətmək və mütəxəssis kimi yetişdirmək vaxt və əlavə zəhmət tələb edirdisə, indi müqavilə prinsipi ilə ordu sıralarına götürülmüş müddətdən artıq hərbi qulluqçular mütəxəssis kimi silah və texnikanın üzərində çalışırlar. Onlar ilbəil öz təcrübələrini artırırlar ki, bu da ümumi işin xeyrinədir.

- Onlar burada həm də ixtisaslaşırlar, - zabit Rövşən Məhərrəmov bildirir. - Akkumulyatorçu, elektrik, qaynaqçı, mühərrikçi və sair peşələrə yiyələnirlər. Bu da təmir işlərinin tez və keyfiyyətli yerinə yetirilməsinə şərait yaradır. Mən belə mütəxəssislərdən baş gizir Murad Əhmədovun, müddətdən artıq hərbi qulluqçular kiçik çavuş Pərviz Məmmədovun, kiçik çavuş Əlizamin Əhmədovun, Vüqar Şumalovun, təxliyyəçi kiçik çavuş Amil Bəkirovun adlarını çəkərdim. Təmir işlərinin səmərəli yerinə yetirilməsi belə mütəxəssislərin bilik və bacarığı hesabına mümkün olur.

Biz hərbi hissədə olarkən üstündə xüsusi emalatxana yerləşən avtomobil təmirə dayanmışdı. Mühərriki nasaz olduğundan mütəxəssislər artıq söküb yerə endirmişdilər və lazımi detalların yenilərilə əvəz edilməsilə məşğul idilər, bir sözlə, maşının üzərində gərgin iş gedirdi.

Təmir postlarında bir neçə qrup ayrı-ayrı detalların təmiri və dəyişdirilməsilə məşğul idi. Onların başı işlərinə o qədər qarışmışdı ki, biz yaxınlaşanda diqqətlərini işdən ayırmadılar.

Müddətdən artıq hərbi qulluqçu sürücü Rəşad Məmmədov özü də mütəxəssislərə kömək edirdi ki, avtomobil tez bir zamanda hazır olsun.

Mühərrik, ötürücü qutular və vallar üzrə usta vəzifəsində çalışan Vüqar Şumalov bizimlə söhbətində dedi:

- Hazırda mühərrikin başlığını və klapanlarını sazlayırıq. Bir azdan onu yığmağa başlayacağıq. Ehtiyat hissələrilə təminatımız yaxşıdır. Bir qalır işi bilərək çalışmaq.

Texnikaya erkən yaşlarından göstərdiyi maraq Vüqar Şumalovun peşə seçimində önəmli olub. Ötən müddət ərzində texnikanın sirlərinə mükəmməl yiyələnib və indi o, hərbi hissədə avtomobillərin təmirilə məşğul olur. Komandirlər onu öz vəzifəsinə məsuliyyət və vicdanla yanaşan təmirçi kimi təqdim etdilər.

- Nə vaxt mühərriki təmir edib qurtara biləcəksiniz? - sualıma usta Şumalov dedi:
- İnşallah, günün sonuna mühərriki yığıb maşının üzərinə qoyacağıq və avtomobil işlək vəziyyətə gətiriləcək.

Həmin gün hərbi hissədə hamı öz işilə məşğul idi. Günün nizam qaydalarına əsasən həm dərslərdə iştirak edir, həm də cari təmirə ehtiyacı olan texnikanın sıraya qaytarılmasına çalışırdılar. Bir sözlə, burada şəxsi heyətin fəaliyyətində gördüyüm işgüzar ab-hava, doğrudan da, ürəkaçan idi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## İdmançılarımız pauerliftinq üzrə dünya çempionatında 3 qızıl medal qazanıb



Azərbaycanın pauerliftinq üzrə 9 nəfərlik komandası ABŞ-da dünya çempionatında uğurla iştirak edib.

Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti Ələddin Əliyev AzərTAc-a bildirib ki, idmançılarımız 3 qızıl medal qazanaraq dünya çempionu olublar. Hafiz Verdiyev 100 kiloqram, İbrahim İbrahimov 110 kiloqram, Günel Talıbova 56 kiloqram çəki dərəcələrində bütün rəqiblərindən üstün olaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## İki idmançımız universal döyüş üzrə dünya çempionatında qızıl medal qazanıb



Moskvada böyüklər (kişilər) arasında universal döyüş üzrə dünya çempionatı keçirilib.

Azərbaycan Universal Döyüş Federasiyasından AzərTAc-a bildiriblər ki, yarışda federasiyanın prezidenti Azər Həsənovun rəhbərliyi və Elşən İsmayılovun məşqçiliyi altında iştirak edən idmançılarımızdan 75 kq çəki dərəcəsində Nicat Əliyev, 70 kq çəki dərəcəsində Orxan Qurbanov qızıl medal qazanıblar. Bununla da. Nicat Əliyev və Orxan Qurbanov ardıcıl olaraq böyüklər arasında ikiqat dünya çempionu olublar.

80 kq çəki dərəcəsində isə Mobil Hüseynov bürünc medala layiq görülüb.

## "Dəmiryolçular"ın Almaniya zəfəri



Qadın voleybolçular arasında CEV kubokunun 2014-2015-ci illər mövsümü start götürüb və Azərbaycanı təmsil edən "Lokomotiv" ilk oyununu keçirib. "Dəmiryolçular" mübarizəyə 1/16 final mərhələsindən başlayıb. Təmsilçimiz Almaniyada "Rote-Raben" klubunun qonağı olub. Görüşə yaxşı start verən "dəmiryolçular" birinci hissədə 25:17, ikinci hissədə 26:24, nəhayət, üçüncü hissədə 25:22 hesabı ilə qalib gəlib.

Beləliklə, rəqibini 3:0 hesabı ilə məğlub edən "Lokomotiv" ilk sınaqdan üzüağ çıxıb. Bakı təmsilçisi noyabrın 26-da Bakıda olacaq cavab oyununa rahat çıxa bilər.

## Məmmədyarov Soçidə Mixail Talın xatirəsinə həsr olunan turnirin qalibi olub



Soçidə Mixail Talın xatirəsinə həsr olunan blits turnirinə yekun vurulub. Azərbaycan Şahmat Federasiyasından AzərTAc-a bildiriblər ki, yarış dairəvi sistem üzrə keçirilib. Əsasnaməyə görə şahmatçılar bir-biri ilə 2 dəfə - həm ağ, həm də qara fiqurlarla qarşılaşıblar.

Şəhriyar Məmmədyarov 22 mümkün xaldan 16 xal toplayaraq turnirin qalibi adını qazanıb. Aleksandr Qrişuk 15.5 xalla 2-ci, Aleksandr Morozoviç isə 12.5 xalla turnirin üçüncüsü olub.

## "Qarabağ" futbol klubu Azərbaycan futbol tarixində daha bir ilkə imza atıb




"Qarabağ" futbol klubundan AzərTAc-a bildiriblər ki, Azərbaycanın idman şərəfini Avropada layiqincə təmsil edən "Qarabağ" dünyaca məşhur "KONAMİ" şirkətinin diqqətini cəlb edib. Şirkət hər il olduğu kimi, bu il də öz məhsulu olan "Pro Evolution Soccer 2015" oyununa bir neçə yeni klub daxil edib. "Qarabağ" həmin klublardan biri olmaqla Azərbaycan tarixində ilkə imza atıb. Klubla rəsmi şəkildə əməkdaşlıq edən "KONAMİ" şirkəti noyabrın 13-də "PES 2015" adlı futbol oyununu istifadəyə verib. Hər kəs bu oyunda "Qarabağ"ı seçməklə futboldan zövq ala bilər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Kapitan İzzətov Rəşadət Mürşüd oğluna 2013-cü ildə Təlim və Tədris Mərkəzi tərəfindən verilmiş sertifikat itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 373
Nüsxə 4570